Səh. 2 Sosial şəbədə – Azər Musaoğlu
Səh. 3 Reallıqla xülya arasında: real həyat və virtual aləm – Hacı Bəkiroğlu
Səh. 5 Sinoplu Diogenin həyatından yarpaqlar – Afiq Muxtaroğlu
Səh. 6 İnsan olmağın şərtləri – Raul Bədəlov
Səh. 2 Gürcü dilini sevdirən müəllim – Leyla Yusifova
Səh. 4 MƏKTƏBLƏRDƏ 18 YAŞDAN YUXARI 3651 ŞAGİRD TƏHSİL ALIR
Səh. 7 Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu – Aleksandre Orbeliani

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 YANVAR
2025-Cİ İL
№ 02 (219)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## AVROPA İTTİFAQI GÜRCÜSTANLA VİZA REJİMİNİN SADƏLƏŞDİRİLMƏSİNƏ DAİR QƏRARA DƏYİŞİKLİK EDİB



Avropa İttifaqı Şurası Avropa İttifaqı (Aİ) ilə Gürcüstan arasında viza rejiminin sadələşdirilməsi sazişinin bəzi hissələrinin dayandırılması barədə qərar qəbul edib. Bu barədə Şuranın mətbuat üçün açıqlamasında deyilir.

Bildirilir ki, hökumətlərarası təşkilatlar tərəfindən istənilən Aİ ölkəsinin ərazisində keçirilən rəsmi görüşlərdə və digər tədbirlərdə iştirak edən Gürcüstanın rəsmi nümayəndə heyətinin üzvləri, Gürcüstanın milli və regional hökumətlərinin və parlamentlərinin, Konstitusiya Məhkəməsinin və Ali Məhkəməsinin üzvləri, diplomatik pasport sahibləri Aİ ölkələrinə vizasız gedə bilməyəcəklər.

***"Lakin adi pasportlara malik olan sadə Gürcüstan vətəndaşları Avropa İttifaqına qısa müddət ərzində vizasız gediş-gəlişdən yararlanmağa davam edəcəklər",*** – deyə Şuranın mətbuat üçün açıqlamasında deyilir.

Şuradan onu da bildiriblər ki, Aİ ilə Gürcüstan arasında viza rejiminin sadələşdirilməsi sazişinin qismən dayandırılması qüvvəyə mindikdən sonra və Gürcüstan vətəndaşlarının viza tələbindən azad edildiyini nəzərə alaraq, üzv dövlətlər viza tələbinin tətbiqi üçün milli səviyyədə tədbirlər görmək barədə qərar verə bilərlər.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze məsələ ilə bağlı jurnalistlərə açıqlamasında bildirib ki, Avropa İttifaqı Şurasının Gürcüstanın diplomatik pasport sahibləri üçün vizasız rejimin dayandırılması barədə qərarı simvolik xarakter daşıyan texniki məsələdir.

Onun sözlərinə görə, Gürcüstan hakimiyyəti üçün ən vacib olan odur ki, ölkədə sülhə təhlükə yoxdur və diplomatik pasportlarla Avropaya səfərlər sadəcə texniki məsələdir.

## GÜRCÜSTANDAKI DİNİ İCMALARA 6 MİLYON 500 MİN LARİ MALİYYƏ YARDIMI AYRILIB

Gürcüstan dövləti 2025-ci ildə ölkədəki dini icmalara maliyyə yardımı ayırıb.

Gürcüstanın Dini İşlər üzrə Dövlət Agentliyi dövlət büdcəsindən ayrılmış vəsaiti dini icmalar arasında bölüb.

Agentliyin yaydığı məlumatda deyilir ki, dini icmalara yardım məqsədilə dövlət büdcəsindən 6 milyon 500 min lari ayrılıb. Artıq bu vəsaitin 3 milyon 500 mini dini icmalar arasında bölüşdürülüb.

Məlumata görə, vəsaitin 4 milyon 150 min larisi Gürcüstanın islam dini icmasına, 1 milyon 100 min larisi ermənilərin apostol xristian icmasına, 700 min larisi Roma katoliklərinin xristian icmasına və 550 min larisi Gürcüstan yəhudi icmasına ayrılıb.

Məlumat üçün bildirək ki, 2024-cü ildə dini icmaların maliyyələşdirilməsi üçün ayrılmış vəsait də 6 milyon 500 min lari təşkil edib.

## GÜRCÜSTAN NÜMAYƏNDƏ HEYƏTİ AŞPA-DA FƏALİYYƏTİNİ DAYANDIRIB



Avropa Şurası Parlament Assambleyası (AŞPA) Gürcüstanda yeni parlament seçkilərinin keçirilməsi və siyasi məhbusların azad olunmasını tələb edən qətnamə qəbul edib.

Qətnamədə Gürcüstan hakimiyyətindən qarşıdakı aylarda yeni seçkilər elan etmək, nümayişçilərə qarşı güc tətbiqini, jurnalistlərə, vətəndaş fəallarına qarşı hüquqi mexanizmlərdən istifadəni dayandırmaq, "xarici agentlər" qanununu geri çəkmək tələb olunub.

Qətnamə 114 lehinə, 13 əleyhinə səs olmaqla qəbul edilib.

Qətnaməyə əsasən, hakim "Gürcü Arzusu" partiyası qeyd edilən tələbləri aprel ayına qədər yerinə yetirməlidir. Həmin vaxtadək Gürcüstan nümayəndə heyətinin səlahiyyətləri məhdud olacaq.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze isə məsələ ilə bağlı bunları qeyd edib: "Xanım Tea Tsulukianinin nümayəndə heyəti adından, komandamız adından elan etdiyi qərar çox mühüm idi. Təbii ki, belə bir vəziyyətdə bizim nümayəndə heyətimiz öz işini Avropa Şurası Parlament Assambleyasında davam etdirmək niyyətində deyil və AŞPA-dakı işini dayandırır. Əgər gürcü xalqına, ölkəmizə münasibət dəyişərsə, o halda, təbii ki, biz Avropa Şurası Parlament Assambleyasına qayıdacağıq".

## GÜRCÜSTAN HÖKUMƏTİ NÖVBƏTİ İKİ İL ÜÇÜN İQTİSADİ İSLAHATLAR PROQRAMINI AVROPA KOMİSSİYASINA TƏQDİM EDİB



Gürcüstan hökuməti "2025-2027-ci illər üçün İqtisadi İslahatlar Proqramı"nı Avropa Komissiyasına (AK) təqdim edib. Bu barədə Gürcüstan Maliyyə Nazirliyi məlumat yayıb.

Nazirliyin məlumatında bildirilir ki, Gürcüstan hökuməti əvvəlcədən nəzərdə tutulan müddətdə Avropa Komissiyasına "2025-2027-ci illər üçün İqtisadi İslahatlar Proqramı" sənədini təqdim edib. Bu, Gürcüstan hökumətinin 2025-ci il 15 yanvar tarixli qərarına əsasən həyata keçirilib.

Qeyd edilib ki, Gürcüstan Avropa İttifaqına namizəd ölkə kimi bu prosesə ilk dəfə 2023-cü ilin sonunda qoşulub. Sənəd Avropa Komissiyası tərəfindən təsdiqlənmiş metodologiya əsasında hazırlanıb və makroiqtisadi, fiskal parametrlərin orta müddətli çərçivəsini əhatə edir. Gürcüstan hökuməti bu proqramın hazırlanmasında "Baxış – 2030 Gürcüstanın İnkişaf Strategiyası"na və digər strateji sənədlərə istinad edib.

Sənəddə həmçinin 2024-cü ildə Avropa Komissiyası tərəfindən verilmiş tövsiyələrin icrası və əvvəlki illərin iqtisadi proqramlarının qiymətləndirilməsi öz əksini tapıb. Proqramın ilk dörd bölməsi makrofiskal parametrlər və dövlət maliyyəsinin idarə edilməsini, beşinci bölmə isə struktur islahatlarını əhatə edir.



# SOSİAL ŞƏBƏDƏ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Biz burnumuz girməyən yerə başımızı soxmaqdan ötrü ölürük. Klaviatura arxasında oturub yetənə yetir, yetməyənə daş atırıq. İstənilən mövzuya girişirik, məsləhət veririk, tənqid edirik, "fikir" bildiririk, qınayırıq, söyürük, tərifləyirik...

Mən başa düşmürəm, axı insan necə hər gün kimlərəsə, nələrəsə "fikir" bildirə, şərh yaza bilər?.. Bu adam yatmırmı, normal insan kimi səhər oyanıb tualetə getmirmi, əl-üzünü yuyub səhər yeməyi yemirmi, qəzetdən-kitabdan oxumurmu, mağazaya getmirmi, yemək hazırlamırmı, nahar etmirmi, şam yeməyi yemirmi, qab yumurmu, paltar ütüləmirmi, çimmirmi, uşaqları ilə məşğul olmurmu, işləmirmi, qonum-qonşu ilə kəlimə kəsmirmi, əlini ağdan-qaraya vurmurmu ki, nə vaxt baxırsan bunun feysbuk profili yaşıl yanır, onlayndır; nə vaxt feysbuka girirsən kiməsə yazdığı şərh qarşına çıxır. Hələ mən instaqramı, tiktoku demirəm. Paralel olaraq orada da onlayn olur. Vallah, billah, qıraqdan baxana doğrudan da elə gəlir ki, bu insanlar yatmırlar, yemirlər-içmirlər, çəkiliblər bir otağa, kompüterin qarşısında və ya telefon əllərində sosial şəbəkələrdə avaralanırlar, ona-buna ağıl verir, fikir bildirir, tənqid edir, söyüş söyürlər...

Yaxşı, başa düşürük, texnologiya dövrüdür, sosial şəbəkələr həyatımızın bir hissəsini təşkil edir, kommunikasiya, informasiya axını və sair və ilaxır... Şərhmi, rəymi yazırsan – yaz, fikirmi bildirirsən – bildir, tənqidmi edirsən – et, təriflәyirsənmi – təriflə, amma heç olmasa burnunu bildiyin, başın çıxdığı, təcrübən olduğu mövzulara sox, day burnun girməyən yerə başını niyə soxursan?! Vallah, billah, kənardan çox pis görsənir. Özünü klaviatura arxasında ağıllı göstərə bilərsən ey, amma tanıyanlar onsuz da bilirlər axı içinin otunu-suyunu, nə yuvanın quşu olduğunu.

Adamlar var sosial şəbəkələrdə hamıya mənəviyyat dərsi keçir, dindən-dondan danışır, amma özü mənəviyyatsızın yekəsidir, özü dinin "d"sına belə əməl etmir. Adamlar var gecə-gündüz milli dəyərlərdən, vətənin hər qarışının müqəddəsliyindən yazmaqdan barmaqları qabar olub, niyəsə gecə-gündüz mənsubu olduğu eyni millətin nümayəndələrinə milli kimliyini sübut etməyə çalışır, amma ortada pul, qazanc, şəxsi mənafe olduqda dönüb olur kosmopolit, gəzməyə qürbət ölkə yaxşı olur. Adamlar var dilimizin "keşiyini çəkir", başqalarının yazılarında ərəb, rus sözlərini axtarıb tapır, irad tutur, milli təhsili tərifləyir, uşaqlarını qeyri-azərbaycandilli məktəblərə qoyanları qınayır, amma özü uşaqları ilə evdə rusca danışır, uşaqlarını xarici dilli məktəblərə qoyur, ali təhsil almaları üçün Avropaya, Amerikaya göndərir və sair. Siyahını artırmaq da olar. O ki deyirlər ha, kimin nəyi çatışmır daha çox ondan danışır, əcəb edib deyirlər. O danışanları yaxından tanıyanda, kulisarxasına baxanda görürsən ki, doğrudan da elə imiş.

Beləəri öz gözündə tiri görməyib, başqasının gözündə tük axtarırlar. Mən hələ də başa düşə bilmirəm, bu gecə-gündüz sosial şəbəkələrə buruntaqlanmış qızların, oğlanların, kişilərin, qadınların, ağsaqqalların, ağbirçəklərin həqiqətənmi başqa işləri-gücləri yoxdur. Bu qədər boş vaxt onlarda haradandır axı?..

Burnunun girmədiyi yerə başını soxanlar, öz gözündə tiri görməyib, başqasının gözündə tük axtaranlar sosial şəbəkələrin olmadığı zamanlarda da var idi. Amma day bu qədər də deyildi. Qohumda, qonşuda bir-ikisinə rast gəlirdin, ayaqüstü yola verirdin gedirdi. İndi, Allah göstərməsin, internet vasitəsilə adamın düz yataq otağına, mətbəxinə, hamamına, iş yerinə, istirahət etdiyi yerə qədər doluşublar, sayları artıb. Əllərinin altında klaviatura və ya smartfon startda durub güdürlər ki, görək kim nə yazacaq, kim necə şəkil paylaşacaq – şərh yazaq, məsləhət verək, tənqid edək, "fikir" bildirək, qınayaq, rişxənd edək, gülək, ələ salaq, tərifləyək, söyək, linç edək... Vallah, bu sosial şəbəkəni lap sosial şəbədəyə çeviriblər.

# GÜRCÜ DİLİNİ SEVDİRƏN MÜƏLLİM



Medea Çalauri uzun illərdir Bolnisi bələdiyyəsinin Xidisquri kəndində yaşayır. Onu bələdiyyənin Xidisquri, Muxrana və Balaxauri kəndlərində tanımayan yoxdur. Bütün ömrünü məktəbə, təhsilə həsr etmiş bu gözəl insan azərbaycanlı şagirdlərin və yerli əhalinin sevimli müəllimidir. Muxrana ümumi məktəbində məsləhətçi müəllim kimi fəaliyyət göstərən Medea müəllimin hər bir şagirdin uğurunda imzası var. Uzun illərdir məktəbdə gürcü dili və ədəbiyyatı fənnini tədris edir, gənclərin gürcü dili baryerini aşmalarında onlara yardım edir, dəstək olur. Onun yetirmələri içərisində Gürcüstanın nüfuzlu universitetlərində təhsil alan gənclərin sayı çoxluq təşkil edir. Medea müəllim uşaqlarla yanaşı müəllim həmkarlarının da gürcü dilini mükəmməl səviyyədə öyrənmələri üçün məktəbdaxili kursda onlara dərslər keçir, böyük fədakarlıqla öz bilik və bacarığını əsirgəmir.

Medea Çalauri 1976-cı il fevralın 21-də Qori rayonunun Patara kəndində anadan olub. 1993-cü ildə həmin kəndin orta məktəbini əla qiymətlərlə bitirib. Əsas prioriteti təhsil olan ailədə böyüyən Medea müəllim Qori Tibb Məktəbində təhsilini davam etdirib. Təhsilini bitirdikdən sonra Qori Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olub. Universitetdə oxuduğu müddətdə bir tələbə kimi universitet həyatında fəal iştirak edib, müxtəlif layihələrə qoşulub, eyni zamanda tələbə olimpiadalarında fəallıq nümayiş etdirib. Bununla yanaşı "Gənc jurnalist" qəzetində, həmçinin diyarşünaslıq muzeyində və "Ədəbi Tsxinvali" qəzetində müxbir kimi çalışıb.

Diyarşünaslıq muzeyində çalışmağı onu sonralar Tbilisi Tarix İnstitutuna gətirib çıxarır. Təhsil departamentinin gürcü dilinin gələcək müvəffəqiyyətləri layihəsində iştirak etməyi onun həmişəlik olaraq bu istiqamətdə işləməsinə gətirib çıxarır. Beləliklə o, 2014-cü ildən bu sahə ilə bağlı layihələrdə iştirak edərək uğur qazanır. Elə həmin ildən başlayaraq bu günə qədər Muxrana məktəbində təhsilin hərtərəfli inkişafı və təmin edilməsi yönündə işlər görür, layihələr həyata keçirir.



Onunla söhbət zamanı xüsusi sevgi ilə azərbaycanlı uşaqlarla birlikdə həyata keçirdiyi layihələrdən bəhs etdi. Mənim əsas məqsədim qeyri-gürcü şagirdlərin gürcü cəmiyyətinə inteqrasiyasına kömək etməkdir deyən Medea müəllim yetirmələrinin Gürcüstanın fərqli universitetlərində təhsil aldıqlarını fəxrlə vurğuladı. O, təhsillə bağlı məktəbdaxili həyata keçirdiyi bütün işlərində Muxrana ümumi məktəbinin direktoru Nestan xanım Onianinin ona yardım etdiyini və dəstək verdiyini dedi.

Əsas məqsədim gənclərin təhsilə cəlb edilməsidir deyən Medea müəllim bunu pedaqoqun əsas vəzifəsi hesab etdiyini qeyd edir. O, məktəbdə fəaliyyəti müddətində təhsillə bağlı problemləri daha yaxından gördüyünü, buna görə də şagirdlərin arzu və imkanlarını daha yaxından qiymətləndirmək imkanının olduğunu qeyd etdi. Medea müəllim Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzin nümayəndəsi olaraq öz həmkarlarına sertifikasiya imtahanlarına hazırlaşmaqda, eləcə də müxtəlif layihələr həyata keçirmələrinə yaxından dəstək verir. O, gürcü dilini böyük fədakarlıqla tədris etməkdə azərbaycanlıların kompakt yaşadıqları Bolnisi bələdiyyəsinin Xidisquri, Muxrana və Balaxauri kəndlərində yaşayan gənclərin cəmiyyətə düzgün inteqrasiyasını asanlaşdırmaq məqsədi daşıdığını qeyd etdi. Medea Çalauri əsas missiyasının gənclərin təhsilə cəlb edilməsi, onların dillə bağlı yaşadıqları problemlərin aradan qaldırılması olduğunu dedi. Bu zəngin mənəvi dünyası olan müəllimlə söhbət zamanı onun gələcəyə təhsilli, sağlam düşüncəli gənclik verməliyik və bu istiqamətdə əsas yük müəllimlərin çiyninə düşür fikri ilə həmrəyəm.

Medea Çalauriyə bütün işlərində uğurlar arzulayıram!

*Leyla YUSİFOVA*
*Vətəndaş təhsili fənni üzrə müəllim*

# SİLİNƏSİ ADƏTLƏRİMİZ – CEHİZLİK VƏ GƏLİN BAZARLIĞI



Ağlanası dirilərdən danışdım, xeyir süfrələrimizin izafi xərcindən danışdım – bununla qurtarsa nə vardır ki...

Övlad toyu etmək valideynə borc dedikləri bir yükdür, hansı ki, etmək məcburiyyətindədir. Etməlidir. Qıza urvatlı cehiz verməsə "xalx" nə deyər?! Kimininsə buna maddi imkanı yol verir, amma verməyənlər kreditlə də olsa filan məbləğdə cehizi mütləq almalıdır. Ən pisi də budur ki, olmaması baş qaxıncı ola bilər. Eyniylə də oğlan evi bazarlığı...

Toydan sonra kredit verən valideynləri çox yaqin hamımız tanıyırıq. Məgər evimizdə 5 nəfəri qarşılyacaq qab-qacağımız yoxdurmu? O qabın marka olmasımı lazımdır? Hələ bu bəhsəbəs ailə büdcəsiylə tərs mütənasibsə...

Bu gün dünya bankları böyük səhmlərini müştərilərə aşağı faizlə verirlər. Bəlkə də inanmazsınız ki, ən böyük faizlər də bizlərdədir, ən böyük sıravi müştərilər də bizdədir. Dünya əhalisi kreditləri yatırım üçün alır, bizlər isə ya dəbdəbəli ev tikirik, bahalı avtomobil alırıq, ya cehiz alırıq, toy edirik. Sonra da illərlə o krediti ödəməyə elə başımız qarışır ki, sahib olmaq istədiklərimizin zövqünü yaşaya bilmirik.

Bakıda bizim qonşuluqda tənha bir rus qadın yaşayırdı. Kimsəylə işi yox, özü üçün sıradan bir həyatı vardı. Vaxtı ilə mühasib olub, indi 74 yaşlı təqaüdçü idi. Bir gün xəstələnmişdi. Ziyarətinə getdim. "Müalicə olunuram", – dedi, – "iynəmi vurarsanmı?" "Əlbəttə, qonşu deyilikmi?" – dedim.

Beləcə, Nadya xala ilə 10 gün hər gün görüşdüm və o görüş mənim həyata baxışımı dəyişdi. Nadya xalanın evində "xelka" dediyi bir köhnə dolab vardı, paltarını yığırdı; bir yatağı, divanı, masası, mətbəxdə sadə qab- qacağı var idi. Geyimi təmiz, səliqəli, zövqlü idi...

Yaşadığı həyatdan danışdı. Oğlu Moskvada təhsil alıb, ailəsiylə orada yaşayırmış. Nadya xala özü adam kimi yaşayıb. Nə qızıla pul verib, nə bahalı təmirə. Oğluna da komsomol toyu (sadə, gənclərdən ibarət tort süfrəsi) edib, çox xəşbəxtdir. Şəkillərinə baxdıqca düşündüm: bu adam bu ömrü yaşayıb.

Mən məktəbdə oxuyanda anam çox baha qiymətə yapon farforu dediyi çay və yemək dəsti almışdı. Mən nə qədər istəsəm də anam onu heç işlətmədi. Gizlicə maraqla əlimə alıb baxardım. Barmağım fincanın içində görünərdi. Sonralar yadımdan çıxdı. Maraqlanmadım. Heç fərqində də olmadım. Mənə cehiz verəndə gördüm anam o sevimli servizləri cehizimin içinə qoyub. Özü gənc də olsa bircə dəfə də o fincanda çay içmədi, o qablarda yemək yemədi. Elə mebelin rəfində qaldı. O qədər zərif əşyalar idi ki, sınar deyə mən də çox istifadə etmədim. Bir gün instaqramda o servizləri 1700 dollara gördüm. Satmaq istədim. Anam dedi: "Onu alan səndən artıqdırmı, nənə yadigarı kimi qızına verərsən". Əlim gəlmədi satmağa, amma bir gün ehtiyatsızlıqdan biri sındı, bununla da o qiymət də, dəyər də bir anda puç oldu.

Anam bütün analar kimi ailə büdcəsindən qənaət edib o qədər elə ev əşyaları almışdır ki... Amma anam da həyatdan getdi Nadya xala kimi. Həyata eyni cür gəldilər, eyni cür öldülər, amma eyni yaşamadılar. Anam cəfakeş, özünü ailəsinə fəda edən qadın idi, amma heç özünü yaxşı mənada düşünmədi – bütün analarımız kimi.

Bir yaxınım divan örtüsünü dəyişib. Uyğunsuzdur deyə pərdəni də, palazı da dəyişdi. Bütün bunları ailə büdcəsinin qənaətindən edir. Bir başqası həmin qənaətlə daşı-divarı bəzəyir. Bir başqası özünə zülm edib evin damını dəyişdirir. Nə ev damır, nə divar uçur, nə də ev əşyaları köhnəlib. Soruşsan, həyatında nə bir dəfə konsertə gedib, nə teatra, nə ailəlikcə restorana, istirahətə gedib...

Bəli, bu, bizik. Kiminsə evinə gedəndə qablara, yeməklərin çeşidinə, geyimimizə baxarıq. Bu, bizik. Bir paltarı dəfələrlə geyinməkdən utanırıq. Niyə axı? Əgər o mənə yaraşırsa, səliqəli isə, zövqlü isə niyə utanmalıyam?.. Bu, bizik. Həyatımızı tikib yaratmaqla keçinirik.

Bu niyələrin siyahısı uzandıqca uzanır. Ömrümüzün boşa xərcləməyə itən zamanı kimi. Sonra da estafeti balalarımıza ötürürük.

Bu, bizik...

***Esmira ƏLƏKBƏRLİ***

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# REALLIQLA XÜLYA ARASINDA: REAL HƏYAT VƏ VİRTUAL ALƏM



Hacı HACIYEV

haci-bekiroglu@hotmail.com

İnsan oğlu yaradıldığı gündən bu yana öz həyatını daha da yaxşılaşdırmağa və yaşadığı dövrü inkişafa doğru aparmağa çalışmışdır. Tarixin hər mərhələsində insan öz ehtiyaclarını ödəmək üçün müxtəlif yollar axtarmış, bu proses bəşəriyyətin mədəni və texnoloji inkişafına səbəb olmuşdur. Bu gün isə texnologiyanın sürətli inkişafı və sosial şəbəkələrin geniş yayılması nəticəsində həyatımızın böyük bir hissəsi virtual məkanda keçir. Virtual dünya reallığın bir qolu kimi həyatımıza daxil olmuş, lakin zamanla bu iki dünya arasında sərhədlər itmişdir.

Virtual aləm insanlara reallıqda əldə edə bilmədikləri sərhədsiz imkanlar təqdim edir. İnsanlar burada istənilən şəklə düşür, öz uğurlarını nümayiş etdirir, başqalarının həyatlarını izləyir və sosial təsdiq axtarırlar. "Bəyənmə"lər, şərhlər və paylaşmalar bir çoxları üçün daxili məmnuniyyətin əsas göstəricisinə çevrilib. Bu cazibənin səbəbi virtual dünyanın reallıqdan fərqli olaraq "ideal dünya" illüziyası yaratmasındadır. İnsanlar sosial şəbəkələrdə özlərini daha uğurlu, daha xoşbəxt və daha mükəmməl təqdim etməyə çalışırlar. Lakin bu görüntülərin çoxu gerçəklikdən uzaqdır və sadəcə olaraq xəyalların məhsuludur.

Virtual aləmin bu cür cazibədar görünməsi insanların öz real həyatları ilə razılaşmamasına səbəb ola bilər. Başqalarının həyatını izləyən insan onların yalnız ən yaxşı tərəflərini gördüyünü unudur. Sosial şəbəkələrdə parlaq şəkillər, uğurlar və xoşbəxt anlar paylaşılır, lakin bu məkanlarda çətinliklərə, məğlubiyyətlərə və problemlərə yer verilmir. Bu da başqalarının ideal həyatını görən insanların öz reallıqlarını daha az dəyərli hiss etmələrinə səbəb olur. Onlar öz həyatlarını bu "ideal" görüntülərlə müqayisə edərək özlərini uğursuz və ya natamam hiss edə bilərlər. Halbuki həmin "ideal" həyat çox vaxt süni olaraq təqdim olunur, çünki heç kəs öz problemlərini və çətinliklərini geniş auditoriya ilə paylaşmaq istəmir.

Reallıq isə virtual aləmdən daha mürəkkəb, lakin bir o qədər də dəyərlidir. Real həyatda insanlar yalnız uğur deyil, həm də məğlubiyyətlər, çətinliklər və mübarizələrlə üzləşirlər. Bu proseslər insanın inkişafına, xarakterinin formalaşmasına və daxili gücünün artmasına səbəb olur. Virtual aləmin parıltılı və xülyalı görünüşü isə bu reallığı kölgədə qoya bilir.

Virtual dünya yalnız fərdlərin deyil, bütöv cəmiyyətin dəyərlərini də dəyişdirir. Ənənəvi insan əlaqələri zəifləyir, həqiqi ünsiyyətin yerini "bəyənmə"lər və rəylər alır. İnsanın daxili dəyərləri və mənəvi zənginliyi yerini zahiri göstərişlərə və sosial təsdiq arzusuna verir. İnsanlar başqalarının onları necə gördüyünə, əslində kim olduqlarından daha çox önəm verməyə başlayırlar.

Bu zərərli tendensiyanın qarşısını almaq üçün reallıq və virtual aləm arasında sağlam bir tarazlıq qurmaq vacibdir. Virtual məkanda sərf etdiyimiz vaxtı idarə etmək, həyatımızın ən önəmli anlarını yalnız paylaşmaq üçün deyil, yaşamaq üçün qiymətləndirmək lazımdır. Gerçək əlaqələr qurmaq, ailəmizə, dostlarımıza və özümüzə vaxt ayırmaq bu balansı qorumağın ən mühüm yollarındandır.

Unutmayaq ki, virtual dünyanın xülyalı görünüşü nə qədər cazibədar olsa da, həqiqi xoşbəxtlik yalnız reallıqda tapıla bilər. Axı həyat yalnız başqalarına göstərmək üçün deyil, hiss etmək, öyrənmək və yaşamaq üçündür. Reallıq – xülyalardan kənar, öz təbiəti ilə dəyərlidir və bu dəyəri dərk etmək hər birimizin öz seçimidir.

## ALİ TƏHSİL İSLAHATI ÜZƏRİNDƏ İŞLƏYƏCƏK KOMİSSİYA YARADILIR



Yanvarın 20-də keçirilən hökumət iclasında məlum olub ki, ali təhsil islahatı üzərində işləyəcək komissiyaya Baş nazir İrakli Kobaxidze rəhbərlik edəcək, komissiyanın başında təhsil, elm və gənclər naziri Aleksandre Tsuladze və Baş nazirin təhsil və elm məsələləri üzrə məsləhətçisi duracaq.

Baş nazir İrakli Kobaxidzenin bəyanatına görə, 4 il ərzində yenilənmiş ali təhsil sistemi olacaq.

"Biz hökumət komissiyası yaradırıq. Bu komissiya 4 illik perspektivdə hökumət islahatları üzərində işləməlidir. Biz ölkəmizdəki universitet təhsil sistemini özünəməxsus şəkildə formalaşdırmalıyıq. Bildiyiniz kimi, bu gün bizim ölkədə ali təhsilin keyfiyyəti qənaətbəxş deyil və bu istiqamətdə resurslar çox böyükdür.

Bütün resursları maksimum mənimsəməliyik ki, 4 il ərzində biz yenilənmiş sistem əldə edək. 4 illik perspektivdə gürcü tələbənin, məsələn, Avropada aldığı keyfiyyətdə təhsil alması tam mümkündür.

Hökumət komissiyasına mən rəhbərlik edirəm, təhsil, elm və gənclər naziri vəzifəsini icra edən cənab Aleksandre Tsuladze müavin, Baş nazirin təhsil və elm məsələləri üzrə müşaviri cənab Levan İzoriya isə katib olacaq".

***Baş nazirin sərəncamına əsasən, komissiyanın digər üzvləri aşağıdakılardır:***

1. İqtisadiyyat və davamlı inkişaf naziri;
2. Maliyyə naziri;
3. Regional inkişaf və infrastruktur naziri;
4. Ədliyyə naziri;
5. İşğal olunmuş ərazilərdən köçkünlər, əmək, səhiyyə və sosial müdafiə naziri;
6. Mədəniyyət naziri;
7. İdman naziri;
8. Acara Muxtar Respublikasının hökumət başçısı;
9. Abxaziya Muxtar Respublikasının hökumət başçısı;
10. Gürcüstan hökumət administrasiyasının rəhbəri;
11. Tbilisi şəhərinin bələdiyyə başçısı.

Qeyd edək ki, yeni hökumət komissiyasının hansı məsələlər üzrə və necə işləyəcəyi hələlik dəqiq məlum deyil. Sərəncamda bildirilir ki, "komissiya ehtiyac olduğu halda toplantı keçirsin və Gürcüstanda ali təhsil islahatının həyata keçirilməsi ilə bağlı məsələləri müzakirə etsin".

## MƏKTƏBLƏRDƏ 18 YAŞDAN YUXARI 3651 ŞAGİRD TƏHSİL ALIR



2024-2025-ci tədris ilinin başlanğıcında Gürcüstanın ümumtəhsil müəssisələrində 18 və yuxarı yaşı olan şagirdlərin sayı 3651 nəfər təşkil edib.

Gürcüstan Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, 2024-2025-ci tədris ilində məktəblərdə 18 yaşdan yuxarı qeydiyyatdan keçənlərin göstəriciləri aşağıdakı kimidir:

18 yaş – 3152 şagird (qız –1445; oğlan – 1707);

19 yaş – 262 şagird (qız – 97; oğlan – 165);

20 yaş və yuxarı – 237 şagird (qız – 103; oğlan – 134).

## "AXTARAN" STATUSU İLƏ İŞƏ BAŞLAYAN MÜƏLLİM NƏ ETMƏLİDİR?




"Axtaran" statusu ilə işə başlayan müəllim distant şəkildə akademik, təhsil müəssisəsində isə praktik kurs keçməlidir. Praktik kurs zamanı həyata keçiriləcək fəaliyyətlərin siyahısı "eschool"un bazasında təsvir olunub.

***"Axtaran" müəllim kimdir?:***

"Axtaran" müəllim müvəqqəti olaraq ümumtəhsil müəssisəsində müəllim statusu qazanmaq üçün dərs deyən şəxsdir.

***"Axtaran" müəllim tərəfindən həyata keçiriləcək fəaliyyətlərin siyahısı:***

1) Dərs planı;
2) Keçirilmiş dərslərin refleksiyası;
3) Sinifdənkənar fəaliyyətlərin planı;
4) Sinifdənkənar fəaliyyətlərin refleksiyası;
5) Özünüqiymətləndirmə;
6) Kursun refleksiyası;
7) Həftə refleksiyası;
8) Tutor/direktorun hesabatı;
9) Fəaliyyət planı hesabatı;
10) Özünüinkişafın qayğısına qalmaq;
11) Və digər fəaliyyətlər.

***Keçirilmiş dərslərin sayı:***

"Axtaran" müəllimin uzunmüddətli və ya qısamüddətli (intensiv) kurs seçmək imkanı var.

1. Axtaran müəllim kursa qeydiyyat zamanı qısamüddətli, yaxud uzunmüddətli kursu seçir. Buna uyğun olaraq proqramda öz iş qrafikini də seçir; a) Uzunmüddətli kurs 2 il və cəmi 20 dərsi nəzərdə tutur, həmin dərsləri tutor müşahidə edir. Kurs müddətini 1 ildən artıq müddətə seçən bütün şəxslərin 20 dərs keçmək öhdəliyi var. b) Qısa kurs minimum 4 ay və 10 dərsin keçirilməsini nəzərdə tutur. Dərsləri tutor müşahidə edir. 4 aydan 1 ilə qədər kurs keçən bütün şəxslərin 10 dərs keçmək öhdəliyi var.

Məktəbdə bütün fəaliyyətləri həyata keçirmək mütləqdir. Dərslərdən əlavə başqa fəaliyyətlərin sayını məktəb direktoru "axtaran" müəllimlik dövrünü məktəb ehtiyaclarını nəzərə almaqla müəyyən edir.

Əgər "axtaran" müəllim artıq qeyd olunan fəaliyyətləri hazırlayıb və həmin sənədlə tanış olduqdan sonra dəyişiklik etmək qərarına gələrsə, dəyişə və sənədi yenidən yükləyə bilər.

## DƏRS SAATI BİTDİKDƏN SONRA MÜƏLLİM MƏKTƏBDƏ QALMALIDIRMI?



Müəllimlərin qüvvədə olan əməkhaqqı formulu sənədində müəllimlərin iş saatı qeyd edilib.

***Sənəddə bildirilir ki, pedaqoqların üç cür iş qrafiki var:***

1) Yarım qrafik – 36 saatdan az iş həftəsini nəzərdə tutur, həmin həftəyə 18-dən az dərs saatı daxildir;

2) Tam qrafik – 36 saatlıq iş həftəsini nəzərdə tutur, həmin həftəyə 18 dərs saatı daxildir;

3) Tam qrafikdən artıq – 40 saatlıq iş həftəsini nəzərdə tutur, həmin həftəyə 19, yaxud daha artıq dərs saatı daxildir.

***Bəs müəllimlər dərs saatlarından əlavə neçə saat məktəbdə qalmalıdırlar?***

Qeyd olunan məsələ ilə bağlı sənəddə deyilir: *"Müəllimə iş saatlarına görə əməkhaqqı vermək o demək deyil ki, müəllim dərs saatları, məktəb sənədlərinin hazırlanması, şagirdlə fərdi işləmək üçün lazımı vaxtdan əlavə mütləq məktəbdə olmalıdır. Müəllimin işinin bir qismini – peşə inkişafı üzərində işləmək, dərslər üçün hazırlıq və s. məktəbdən kənarda həyata keçirmək hüququ var. Əgər məktəb rəhbərliyi hesab edirsə ki, müəllim təhsildə istənilən nəticəni göstərə bilmir, bu maddənin 2-ci bəndi ilə iş həftəsində nəzərdə tutulmuş saatlar çərçivəsində təhsil nəticələrini yaxşılaşdırana kimi rəhbərlik müəllimdən məktəbdə işləməyi tələb edə bilər".*

***Səhifədəki məlumatlar "edu.aris.ge" və "etaloni.ge" saytlarından götürülüb.***
***Gürcü dilindən tərcümə etdi Aynurə ƏLİYEVA***

# SİNOPLU DİOGENİN HƏYATINDAN YARPAQLAR



Sinoplu Diogen (e. ə. 412 - e. ə. 323) – haqqında əfsanələr dolaşan, kinizm fəlsəfi cərəyanının banisi, kinayəli lətifələri ilə tanınan, düşüncələri ilə ictimai quruluşa nifrətini, sadəliyə sevgisini nümayiş etdirən qədim yunan müdriki. Hətta Makedoniyalı İskəndərin ona həsəd apardığı, “Dünyaya bir də gəlsəydim, Diogen olardım” dediyi də söylənilir.

Onun həyatını əks etdirən bu kiçik epizodları tərcümə edib bir yerə toplamaqda məqsədimiz oxucuları onunla yaxından tanış etməyə kiçik bir cəhddir.

### *Diogen zəngin evində*

Bir dəfə Diogen zəngin bir evə dəvət olunubmuş. Ev yiyəsi ona döşəməyə tüpürməyi qadağan etdiyindən o, ev sahibinin üzünə tüpürərək deyib:

– Tüpürməyə bundan pis yer tapmadım.

### *Diogen və insan anlayışı*

Bir gün Diogen bərkdən qışqırır:

– Ey insanlar!

Onun səsinə qaçıb gələnləri Diogen dəyənəklə qovaraq deyir:

– Mən insanları çağırırdım, əclafları yox.

### *Afinalıların tərifi*

Bir dəfə Diogen şəhər meydanında fəlsəfi mühazirə oxuyurmuş. Heç kim ona qulaq asmırmış. Nəhayət, Diogen quş səsi çıxarmağa başlayıb, bir anda ətrafına yüzlərlə adam toplaşıb. Onlara kinayə ilə baxan filosof deyib:

– Ey afinalılar, bax, sizin ağlınızın dəyəri budur. Nə vaxt ki, mən sizə ağıllı şeylər danışırdım, heç kim mənə fikir vermirdi. Elə ki, quş kimi cikkildədim, ağılsız quşlar kimi ağzınızı ayırıb qulaq asdınız.

### *Diogenin fənəri*

Diogen günün günorta çağı əlində yanan fənərlə Afinanın küçələrində dolaşırmış. Ondan nə axtarırsan soruşanlara belə cavab verib:

– İnsan axtarıram.

Bununla o, fəzilətli, vicdanlı və səmimi insanları tapmağın çox çətin olduğunu göstərmək istəyirdi.

### *Diogen və Makedoniyalı İskəndər*

Diogenin heyranı olan Makedoniyalı İskəndər bir dəfə ona yaxınlaşıb deyir:

– Mən Makedoniyalı İskəndərəm, nə diləyin var istə, yerinə yetirim.

Cavabında Diogen deyib:

– Kənara çəkil, mənim günümün qabağını kəsirsən.

Bu epizod filosofun ağlının müstəqilliyini və hakimiyyətə biganəliyini sərgiləyir.

### *Diogenin çəlləyi*

Diogen çəlləkdə (böyük gil amforada və ya pifosda) yaşayır və ən zəruri şeylərlə kifayətlənirdi. Niyə belə həyat seçibsən sualına o, artıq olan hər şeydən yaxa qurtarmaq üçün cavabını verir.

Bu, onun xoşbəxtliyin maddi nemətlərdən asılı olmadığı inamının rəmzidir.

### *Diogen və tüksüz toyuq*

Platonun insana “ikiayaqlı, tüksüz heyvandır” kimi tərif verdiyini eşidən Diogen bir toyuğun tüklərini yolaraq, Akademiyaya gətirib deyibmiş:

– Platonun insanı budur!

Cavabında Platon öz tərifinə düzəliş etməyə məcbur olub, “hamar dırnaqlı” əlavəsini edib.

### *Diogen bazarda*

Bir dəfə Diogen kefi kök halda bazarda gəzirmiş. Ondan sevincinin səbəbi barədə soruşanlara belə cavab verib:

– Gör, nə qədər şey var, xoşbəxt olmağa ehtiyac yoxdur!

### *Meydanda nahar*

Diogenin adamlarla dolu meydanda yemək yeməyi afinalıları heyrətə salıb. Onların məzəmmətinə Diogen belə cavab verib:

– Əgər camaat arasında yemək ayıbdırsa, onda camaat arasında ac olmaq rüsvayçılıqdır.

### *Diogen və köləlik*

Diogeni dəniz quldurları ələ keçirib qul kimi satarkən, ondan nə bacardığını soruşurlar. O, cavab verib:

– İnsanlara əmr verməyi.

Onu korinfli zəngin Kseniad alıb və öz uşaqlarının tərbiyəsini ona tapşırıb.

### *Heykəldən sədəqə ummaq*

Diogen hərdən özünü şəhərin mərkəzindəki heykəllərdən sədəqə istəyən kimi göstərirmiş. Nə üçün belə etdiyini soruşanlara isə belə cavab verirmiş:

– Rədd edilməyə alışmaq üçün məşq edirəm. Özümü insanlar mənə pul verməyəndə kədərlənməməyə öyrəşdirirəm.

Bu, onun tənqid və ya rədd edilərkən sakitliyini qorumaq istəyinin nümayişi idi.

### *Uşaq və parç*

Bir dəfə Diogen parçdan su içirmiş. Baxır ki, bir uşaq suyu bulaqdan ovcuyla içir. Diogenin parçı bir kənara ataraq bu sözləri dediyi söylənilir:

– Bu oğlan mənə hələ nə qədər gərəksiz əşyalarım olduğunu göstərdi.

Zəngin bir ailənin oğlu olan Diogenin bundan sonra kinikliyə başladığını güman edirlər.

### *Varlı evinin qonağı*

Varlı adamın evinə dəvət olunan Diogen bahalı xalçaların üzərində yalın ayaq gəzərək, belə deyib:

– Mən sizin lovğalığınızı tapdalayıram.

Ev yiyəsi də kinayə ilə:

– Bəli, bunu çox böyük təvazökarlıqla edirsən, – cavabını verib.

### *Filosoflar və varlılar haqqında*

Diogendən nəyə görə filosofların varlıların yanına tez-tez getdiklərini, amma varlıların filosofları ziyarət etmədiklərini soruşurlar. O, cavabında deyib:

– Ona görə ki, filosoflar nəyə ehtiyac duyduqlarını bilirlər, varlılar isə nələrinin çatmadığını bilmirlər.

### *Diogenin boşboğaza cavabı*

Çox danışan biri Diogendən fasiləsiz danışmaq bacarığına görə onu tərif etməsini xahiş edib. Diogen deyib:

– Bu heç nəyi sübut etmir. Hətta eşşəklər də bütün günü xırmanda çalışır.

### *İfrat kinizm*

Diogen pis davranışına və qaydalara hörmətsizliyinə görə məzəmmət edilərkən, cavab verib:

– İtlər öz düşmənlərini dişləyirlər, mənsə dostlarımı xilas etmək üçün onları dişləyirəm.

### *Diogenin ölümü*

Təbiətlə harmoniya içərisində, maddi nemətlərdən asılı olmadan, izafi şeylərdən uzaq yaşamağın tərəfdarı, ictimai münasibətlərə etinasızlığın simvolu kimi tanınan Diogen, rəvayətə görə, ya çiy osminoq yeməkdən zəhərlənərək, ya da öz bədəninin məhdudluğuna etiraz əlaməti olaraq, nəfəsini qəsdən tutaraq nəfəs çatışmazlığından ölmüşdür.

*Afiq MUXTAROĞLU*

# SƏHV DÜŞÜBDÜR YERİMİZ



Mən hamının yaşadığı, hamıya aid olan şeylər haqqında yazmağı çox sevirəm. Çünki bilirəm ki, mən özümə aid olan hekayə haqqında yazanda, oxucular öz yaşadıqları hekayə haqqında düşünürlər. Yazılan bir neçə cümlənin insanları xatirələr aləminə aparmağa qadir olması sevindirici bir haldır.

Əminəm ki, necə oxuyub-oxumadığından asılı olmayaraq, məktəbdə hər kəsin çox sevdiyi bir dərs, çox sevdiyi bir müəllim olmuşdur. Heç ağlımızda olmasa belə, o şəxs, o dərs bizi bir anlığa müəllim olmaq xəyallarına daldırmış, düşündürmüşdür. Mənim üçün bu dərs ədəbiyyat idi. Ədəbiyyat müəllimim də şagirdlərini həvəsləndirməyi sevən, şagirdi bir bilirsə, onu on bilirmişcəsinə tərifləyən bir insan idi. Ona görə də ədəbiyyat dərsini, xüsusilə şeir danışmağı, demək olar ki, hamımız çox sevirdik. Bütün dərslərə hazırlıqlı gedir, təriflənməyin, xoş söz eşitməyin verdiyi gözəl hisslərlə də evə qayıdırdıq.

Yenə bir gün axırıncı dərs ədəbiyyat dərsi idi. Yenə eyni qaydada dərsi keçdik, müəllim evə tapşırıq verdi, biz də tələsik çantalarımızı götürüb evə yollandıq. O vaxtlar adətim idi, yeməyimi bitirən kimi dərslərimi oxuyub, hazırlayardım. Kitabımı açdım, qısa bir şeir olduğunu görüb çox sevindim, bunu yarım saata rahat öyrənərəm, sonra da gedib uşaqlarla oynayaram dedim. Amma nə isə tərslik var idi, oxuyurdum, oxuyurdum, yadımda heç nə qalmırdı. Axırda vəziyyət elə yerə gəldi ki, uşaqlarla oynamaq yalan oldu.

Şeiri öyrənməyə, əzbərləməyə çalışır, bir yandan da “ədəbiyyat biliyimə” güvənərək şeirdə düzəlişlər etməyə çalışırdım. Çünki şeir belə olmalı deyildi, birinci növbədə qafiyələri yaxşı olmalı, asan əzbərlənməli idi. Şeiri bəyənməsəm də, sabah mütləq danışmalı idim, bir dərsə görə müəllimin gözündən düşmək istəmirdim.

Səhəri günü lövhəyə çıxıb şeiri danışdım. Amma bu dəfə müəllimim hər zamankı kimi, içdən təbəssüm edərək baxmırdı. “Yaxşıdır” deməklə yetinmişdi bu dəfə. Bu da yaxşı danışmadığımı bariz şəkildə göstərirdi. O gündən bu şeiri bir daha görmək istəmirdim...

Aradan yeddi il keçmişdi. Mən artıq şagird adımı, müəllimim isə həyatını itirmişdi. Sırf o günlərin xatirinə bir daha oxumaq istəmişdim həmin şeiri. Amma onun  haqqında tək yadımda qalan müəllifinin soyadının kitabda qeyd olunmaması idi. Bir neçə axtarışdan sonra şeiri tapdım, yenidən oxudum, amma bu dəfə şeirdəki “səhvləri” düzəltmək məqsəli ilə deyil, öz səhvlərimi düzəltmək məqsədi ilə.

Ümman gəmisi çayda  
Oturar, üzməz!  
Çay gəmisi, dağ boyda  
Dalğaya dözməz!  
Dözümsüz oluruq biz,  
Səhv düşəndə yerimiz.

***

Küt bıçaq parıldayıb  
Xırçıltı salıb.  
Qılınc qında pas atıb  
Qında korşalıb...  
Heyf... korşalırıq biz,  
Səhv düşəndə yerimiz.

***

Tarın pərdələrini  
Düzənə qurban!  
Yerdəyiş et birini,  
Xaric vurarsan.  
Xaric səslənirik biz,  
Səhv düşəndə yerimiz.

İlahi, mən nə böyük səhv etmişəm dedim özözümə. Bu qızıl sözlərin necə də dəyərini anlamamışam. Əslində, nə qədər çox şey izah edirmiş bu kiçik həcmi ilə.

Bir neçə saat özümü günahlandırdıqdan sonra anladım ki, bu dahiyanə şeirin yeri də səhv düşübmüş. Tar-kamana qulaq asılanda bezib yan otağa keçən bir uşaq nə bilsin ki, xaric oxumaq, xaric səslənmək nədir. Necə fərqləndirsin ümman gəmisi ilə çay gəmisini?.. Halbuki bu şeirlə Habil Əliyevi, Ramiz Quliyevi, Həbib Bayramovu, Qulu Əsgərovu zövq alaraq dinlədiyi vaxtlar tanış olsa çox fərqli olmazdımı? – Olardı, təbii ki.

Şeirdə də qeyd olunduğu kimi, səhv düşmək müsibətdir. Səhv düşməkdən daha müsibətli bir şey varsa, o da səhv düşdüyün yeri doğru etməyə çalışmaqdır. Qısası, həqiqəti oğurlamaqdır.

Məsələn, əgər bir ölkədə təhsildən şikayət edilirsə, deməli, təhsil verənlərin; ədalətdən şikayət edilirsə, ədalətin keşiyini çəkənlərin yeri səhv düşüb. Əgər yanlışlıqla birinin çantasını götürüb, fərqinə varan kimi səhvinizi düzəltsəniz, bu təqdirə layiqdir. Amma fərqinə vardığınız halda qaytarmasanız, siz oğrusunuz deməkdir. Şikayətlərin fərqinə varan kimi düzəltmək üçün addım atılırsa təqdirə layiq, qulaq ardı edilirsə oğurluq sayılır. “Çərpələng uçuran” kitabında da deyildiyi kimi, oğurluq ən böyük günahdır.

Sonda dahi şairimiz Qabil İmamverdiyevə və müəllimimə Allahdan rəhmət diləyirəm!

***Hürnisə ƏHMƏDOVA***  
*Tbilisi Dövlət Universitetinin kimya fakültəsinin 2-ci kurs tələbəsi*

# İNSAN OLMAĞIN ŞƏRTLƏRİ



Bu məqalə dünyanın əbədi xaosu ilə insanın qəlbindəki bitməz ümidin toqquşmasını rəsm edir. Həyat – içində xəyal, qorxu, sevgi və nifrət olan bir səhnədir. Bu səhnədə hər kəs bir dəfə oynayır. Kimisi qəhrəman, kimisi günahkar, kimisi isə sadəcə izləyici olur. Amma heç kim bu oyundan qaça bilmir.

I. Həyatın çətinlikləri:

Həyat sənə həmişə sərt davranacaq. Kasıbçılıq, xəstəliklər, zorakılıq və müharibələr sənin yoluna daşlar atacaq. Bəzən heç bir günahın olmadığı halda özünü ədalətsizliyin içində tapacaqsan. Bir yerdə insanlar acından öləndə, başqa yerdə tonlarla yemək atılacaq. Biri xəyallarını reallaşdırmaq üçün bütün sərvətini itirəcək, digəri heç bir əziyyət çəkmədən zirvələrə qalxacaq.

Amma sən bu çətinliklərin içində öz yolunu tapmalısan. Hər çətinlik səni ya məhv edəcək, ya da gücləndirəcək. Həyat sənə heç vaxt "niyə mən?" sualına cavab verməyəcək. Çünki həyat heç kimin suallarına cavab borclu deyil.

II. Sevgi və xoşbəxtlik:

Bəzən həyat sənə bir hədiyyə verəcək – sevgi. Bu sevgi bəzən dostluqda, bəzən ailədə, bəzən bir təbəssümdə gizlənəcək. Amma unutma, sevgi həmişə təhlükəlidir. Çünki sevgi sənin ən zəif nöqtəndir. Sevəndə itirməkdən qorxacaqsan. Sevəndə xəyanətdən yanacaqsan. Amma məhz bu qorxu və ağrı sevginin dəyərini artırır.

Xoşbəxtlik isə bir anlığa gələn, əllərindən sürüşüb gedən bir toxunuş kimidir. O, nə qədər qısa olsa da, sənə bu xaosun içində yaşamağa dəyər olduğunu sübut edəcək. Xoşbəxtlik bir insanın baxışında, bir uşaq gülüşündə, bəzən isə sadəcə sükutda tapılır.

III. Müharibələr və zorakılıq:

Dünya insanları qorumaq üçün yox, onları parçalamaq üçün yaradılmış sistemlərlə doludur. Müharibələr torpağı, zorakılıqlar isə ruhları məhv edir. Hər silah səsi, hər çırpınan qışqırıq insanlıqdan bir şeylər aparır. Amma bu da həyatın bir hissəsidir. Müharibələr sənə sülhün dəyərini, zorakılıq isə anlayışın əhəmiyyətini öyrədir.

IV. Bullinq və insan xəyanəti:

Sən mübarizə apararkən insanlar bəzən ən böyük maneən olacaqlar. Bullinq, alçaltma, xəyanət – bunlar səni zəiflətmək üçün qarşına çıxacaq. İnsanlar çox vaxt öz zəifliklərini başqalarının üzərində göstərir. Amma sən bil ki, onların hər aqressiyası onların öz dərdlərindən qaynaqlanır. Onları məğlub etməyin yolu isə daha güclü olmaqdır.

V. Siyasi problemlər və ədalətsizlik:

Siyasət dünyanı idarə edir, amma çox vaxt insanlığa xidmət etmir. Hakimiyyət uğrunda mübarizə sənin qəlbini yoracaq. İnsanların bir parça torpaq və ya hakimiyyət uğrunda nələrdən keçdiyini görəndə bunu haqsızlığın bir hissəsi kimi hiss edəcəksən. Amma unutma, dünya heç vaxt tam ədalətli olmayıb və olmayacaq. Sənin borcun bu haqsızlığa qarşı mübarizə aparmaqdır.

VII. Həyatın təhlükəli gözəlliyi:

Həyat təhlükəlidir, bəli. Amma o, eyni zamanda gözəldir. Günəşin doğuşunda, dəniz dalğalarının səsində, yaz küləyinin toxunuşunda gizlənən bir möcüzə var. Bəzən həyat səni ən qaranlıq yerlərə aparacaq, amma o qaranlıqda parlayan bir işıq həmişə olacaq. O işıq sənə yaşamağa davam etməyin səbəbini göstərəcək.

VI. Ölüm:

Ən ağırı isə ölümdür. Həyat sənə nə qədər dəyərli olsa da bir gün onu itirəcəksən. Sevdiklərini bir-bir itirdikcə qəlbində sağalmaz yaralar açılacaq. Amma ölümün özü də bir dərsdir. O, sənə hər anın dəyərini öyrədəcək. Həyatın nə qədər qısa olduğunu başa düşəndə hər saniyəni daha çox qiymətləndirəcəksən.

Nəticə:

Həyat sənə heç nə borclu deyil, amma sən hər şeyi qazanmaq üçün buradasan. Həyat səni sınayacaq, sındıracaq, sevindirəcək və hətta məhv etməyə çalışacaq. Amma sən bil ki, hər ağrının arxasında bir dərs, hər çətinliyin sonunda bir güc, hər xoşbəxt anın arxasında unudulmaz bir xatirə var.

İndi isə qərar ver: həyatın səni idarə etməsinə icazə verəcəksən, yoxsa sən onu idarə edəcəksən? Sonda yalnız bir şey dəqiqdir – sən nə etsən də həyat davam edəcək. Amma necə davam edəcəyinə yalnız sən qərar verə bilərsən.

**Raul BƏDƏLOV**

*Qardabani 3 nömrəli məktəbin şagirdi*

# BURNUM UZUN OLDUĞUNA GÖRƏ MƏKTƏBDƏ MƏNƏ GÜLÜRDÜLƏR



Burnum uzun olduğuna görə məktəbdə mənə gülürdülər. "Zərdə!" "Pinokyo" "Sifətindən ağac bitib?" – mənə yeni-yeni təhqiredici adlar qoyurdular. Çünki onlarla müqayisədə burnum cəmi bir neçə millimetr uzun idi. Bu bir neçə millimetr demək olar ki, mənim xarakterimi də müəyyən etmişdi, hər halda, özünüqiymətləndirməm dəhşətli dərəcədə azaldı.

Sinif yoldaşlarımdan bir oğlan çox acıdil idi. Özünün çəki problemi var idi. Yəqin həmin kompleksini örtmək üçün belə qəddar idi. Fərqli qızlar "yığması" var idi, onlar sinfin ən baxımlı qızları idilər və həmişə onları güldürürdü. Bir dəfə həmin qızlardan nəsə soruşdum və bu oğlan guya ki, mənə yumorla cavab verdi: "Başa düşürəm ki, burnun uzundur, amma bəlkə başqasının işinə burnunu soxmayasan". Həmişə istəyirdim ki, anam, ya atam mənə "Nə gözəlsən!" desin. Evdə anamın geyim və kosmetikası ilə oynamağı sevirdim. Makiyaj edib bəzənməyə çalışırdım. Anam buna görə mənə hey söylənir: "Təhsilini fikirləş, həmişə görünüşü düşünmə". Soruşanda ki, "gözələm, yoxsa yox?" anam cavab verdi: "Ancelina Coli deyilsən, amma özünə görə kifayət qədər görünüşün var".

Ondan sonra Ancelina Coli olmaq istəyirdim. İstəyirdim anam qürurlansın. Məktəbdə yaxşı oxuyurdum. Bütün fənlərdən yüksək balım var idi. Anam deyirdi: "Əsas odur ki, təhsilli olasan". Mən həmişə düşünürdüm ki, anam mənim təhsilli olmağımın dərdini çəkirdi, gözəl olmağımın deyil. Məktəbdə mənə güldüklərini heç vaxt evdə danışmırdım.

Nə yaxşı ki, yaxın dostum var idi. O da çox yaxşı oxuyurdu. Həmişə birlikdə idik və bu, sanki bizim kimilərin yeri olmayan, boz rəngli məktəb həyatımızı şənləndirirdi. Biz ayrılmaq istəmirdik, amma belə alınırdı. Bizə pioner adı vermişdilər.

Bizim sinifdə bir oğlan oxuyurdu, atası yox idi. Deyirdilər atası "oğru"dur. Özü də atasının yolunu davam etdirmək istəyirdi. Partada əyləşəndə məni sorğuya çəkirdi: "Qarşında hansı kitab durur? Danış, çox maraqlanıram. Axı sən çox ağıllısan, hər şeyi öyrənirsən". Mən deyəndə ki "məndən əl çək", o, sakit, ironiya ilə, saqqız çeynəyərək suallar verməyə davam edirdi: "Danış mənə, maraqlanıram!". Əslində isə sinif yoldaşlarımızı güldürürdü. Həmin an yerin yarılmasını istəyirdim. Məni necə tər basdığını və sinif yoldaşlarımın istehzalı baxışlarının dərimi necə yandırdığını hiss edirdim. Dalaşmağımın, susmağımın heç bir mənası yox idi, o, yenə də inadkarcasına davam edirdi. Müəllimlər isə demək olar ki, heç nə görmürdülər, reaksiyaları yox idi.

İndi birinci kursda oxuyuram. Yetkinlik yaşına çatan kimi burun əməliyyatı etdirməyə qərar verdim. Buna nə qədər ehtiyacım olduğunu birbaşa və emosional şəkildə ifadə edəndə valideynlərim məəttəl qaldılar və heç nə demədilər. Elə həmin həftə əməliyyatım üçün kredit götürdülər.

Universitetə yarım il uzun burunla getdim və bilərəkdən heç kimlə tanış olmadım. Əməliyyat olana qədər kiminsə məni belə xatırlamasını istəmirdim. İndi güzgüyə baxanda özümü çox bəyənirəm. Həmişə düşünürdüm ki, əməliyyat etdirdikdən sonra sinif yoldaşlarımla xoşbəxt və başı uca görüşəcəm. Bu səhnəni min dəfə təsəvvür etmişəm – necə gedirəm və onların heyrət dolu komplimentlərini dinləyirəm. Amma məlum oldu ki, həmin dövrü xatırlamaqdan o dərəcədə nifrət edirəm ki, hələ də hansısa sinif yoldaşımı görmək istəmirəm.

---

***Müəlliflər:* *Maia Sarişvili, Aleks Çiqvinadze.***

***"Mənimlə dostluq et! Məktəbdə təkəm!" kitabından.***

***Gürcü dilindən tərcümə: Aynurə Əliyeva***

---

***Kitab məktəb şagirdləri tərəfindən təqdim edilmiş real hekayələrə əsaslanır və İlia Ədalət İnstitutunun "Məktəbdə bulinqə qarşı sistem yaradılması üçün advokatlaşdırma/ "Mənimlə dostluq et! Məktəbdə təkəm!" layihəsi çərçivəsində hazırlanıb. Layihə "Açıq Cəmiyyət – Gürcüstan"ın maliyyə dəstəyi ilə həyata keçirilir.***

# AĞA MƏHƏMMƏD ŞAH QACARIN TİFLİS ŞƏHƏRİNƏ HÜCUMU

ALEKSANDRE ORBELİANİ



*(əvvəli ötən sayda)*

Ümidi olan İrakli avqustun iyirmisində bütövlükdə bizim qoşunların Tiflisdə bir yerdə cəm olacağını deyirdi, avqustun 23-də gəldi. Şəhərdə heç kim yox idi. Çar incidi və dörd tərəfə çapar göndərdi. Amma hər yerdə şeytanlar qərar tutmuşdular və onları şeytani hiyləgərliklə uzaqlaşdırdılar. Çara bunun cavabları gəldi, bəziləri avqustun sonunda, bəziləri sentyabrın sonunda, şübhəsiz ki, qoşun bu iki-üç günə gələcək. Bunun ümidi ilə dörd min adamı ilə və çar Soloman da üç min imeretili ilə önə keçdi.

Çar İrakli bu kiçik qoşunla, belə ki, yeddi min döyüşçü ilə Qazağa gedəndə Ağa Məhəmməd şah Qacardan üçüncü səfir gəldi: "Odur ki, mən Arazı keçdim və sənə səfir göndərdim, mən də səfirin ardınca gəlirəm. Sən yaxşı çarsan və sənə xələl yetirmək istəmirəm, amma bu istəyimi yerinə yetir və buna əmin olmaq üçün oğlundan birini, ikincisi, nəvələrindən birini mənə girov göndər. Dərhal geri dönüb gedərəm". Hər halda buna əməl etmədi, onunla barışığa gəlmədi, ona görə ki, bir etiqata görə, İrakli Rusiyaya sədaqətli olduğuna layiqli söz verdi. Və bir də, onun qüdrətinə də böyük ümid bəsləyirdi. Buna görə Ağa Məhəmməd şah Qacarın səfirini həbs etdirdi və Tiflis şəhərinə, onun məliki tavad Darçiya Bebutaşvilinin yanına göndərdi. Onu həbs etməyin səbəbi bu idi: bizdən bir xəbər aparmasın. Bu əhvalat aşağıda daha artıq olacaq, necə ki, olub.

Belə ki, onu şəhərə göndərdi, özü heç yerdə müharibəyə başlamayan Ağa Məhəmməd şah Qacarın önünə keçdi. Uzaqdan-yaxından təqib etməyə başladı, bəriyə gətirdi və doğrudan Kürün yaxınlığında, Soğanlıq çölündə qərar tutdular. Qırx mindən artıq qızılbaş, çar İrakli hər halda yenə düşündü: Tiflis şəhərində məni böyük qoşunlar qarşılayacaq. Ancaq heç bir yerdə qoşun yox idi, hətta bir atıcı belə. Və burada şübhə etməyə başladı: Bu, şübhəsiz ki, xəyanətdir, amma kimə xəyanət edirlər: mənə, yoxsa vətənə? – "Əgər onların mənimlə bir səbəbi varsa, vətənlə nə işləri vardır?" – o, kədərlə dedi.

Çar İrakli öz ordusu ilə Qazağa doğru gedəndə burada Tiflis şəhərində başqa bir hadisə baş verdi. Cümə günü səhər tezdən şəhərdə bir səs yayıldı: "Çar İrakli və çar Solomon öz qoşunları ilə birlikdə Ağa Məhəmməd şah Qacarın üstünü aldırıb. Belə ki, Qızılbaş ordusu kartlilərlə imerlilərin əhatəsindədir və onlar hamısını qıracaqlar". Halbuki buna heç kim inanmadı, ancaq and içərək bunu əmin edirdilər.

Buna görə şəhərdə çaxnaşma əmələ gəldi və ilkin olaraq vətəndaşlar çariça Darecanın yanına getdilər. Həmin vaxt katolikos Anton da öz anası çariça ilə orada dayanmışdı, ondan şəhəri tərk etməyi xahiş edirdi. Çariça ağlamağa başladı və katolikos Anton buna inana bilmədi: Əgər doğru olsaydı, xəbər bizə çatardı.

Vətəndaşlar xəbər verdilər: – "Necə də yox, adamlar gəldi, onlar dedilər".

– O adamlar haradadır? – Katolikos soruşdu.

– "Tələsik atları mahmızladılar, bunu bizə dedilər və dərhal Kaxetiyə yola düşdülər".

– Onlar kim idilər?

– "Onlar bizim qoşundan qaçan adamlar idilər".

– Onları tanıya bilmirsiniz?

– "Sizə necə deyim, kəndlilərə bənzəyirdilər. Onların kim olduğunu bilmirik".

– Nə edim, nəsə bu, bir növ yalan olmalıdır.

– "Sənin qadan alım, mənim ağam, hər halda tərpənmək üstündür. Əgər yalan olsa yenə tezcə qayıdarsınız, nə çətindir".

Sən demə həmin adamlar Revaz Andronikaşvilinin qoşundan göndərdiyi adamlar imiş. O yenə nələr etdi sonra oxuyarsınız.

Nəhayət, çariça ağlamağı kəsəndə qətiyyətlə dedi: – "Sizin hamınızın ixtiyarınız var, hara istəyirsiniz ora da gedin, amma mən heç yerə gedə bilmərəm. Kim ərimi, nəvəm Solomonu və bizim qoşunu məhv etdisə, mən də onun əli ilə həlak olmaq istəyirəm".

Bu sözdən sonra vətəndaşlar çox narahat oldular, lakin həyat hamı üçün qiymətli idi. Buna görə evlərini necə var idisə eləcə tökүb getdilər və həmin cümə günü səhər tezdən, demək olar ki, şəhərin yarısı oranı tərk etdi, şəhərin yarısı da o biri günün səhərisi tərpənmək niyyətində idi, çünki, hər halda nəsə xəbər gözləyirdilər: məhz elə xəbər aldıq ki, bəlkə yalan olsun.

Lakin şəhərdə qalan və hələ də onu tərk etməmiş vətəndaşlar həmin gecə yenə çariçanın və katolikos Antonun yanında idilər və çox yalvararaq onlardan xahiş etdilər: Bütün şəhər buranı tərk edir, siz burada tək nə edəcəksiniz? (Həmin vaxt birinci dəfə vətəndaşlar ora gedəndə də, ikinci dəfə də Bejana Bastamaşvili orada olub. Ondan başqa çox şeylər də eşitdim).

Bu zaman katolikos Anton çariçaya bildirdi: "Mənim hökmdarım, anam, bunlar sizə həqiqəti söyləyirlər. Təkcə sizin burada olmağınız bu şəhərə nəsə əlac edərsə, bizim qanımızın son damlası, kim ki, burada varıq, sizin dərdinizi-bəlanızı aparsın, amma nə edək, burada gücümüz, ordumuz yoxdur? Bu səbəbdən yaxşı olar ki, buranı tərk edək, Mtiuletiyə gedək, orada qoşun toplayıb qızılbaşların üzərinə gələk, biz işimizi sahmana salmayınca Ağa Məhəmməd şah Qacar buranı tərk etməyəcək".

Bu məsləhət hamı tərəfindən bəyənildi və dərhal tərk etmə ehtiyatına başladılar və şəhər də tərpənməyə hazırlaşdı (Onu da qeyd edim ki, şahzadə mənim anam bunu da deyirdi: "Belə bir dəhşətli sədalar atıblar aramıza. Elə indi tezcə tərpənin ki, Ağa Məhəmməd şah Qacar Soğanlıq düzünə gəlib". Xəyanət xəyanətdir, o çarın sərvətləri ilə dolu saray da düşmənlərin əlində qalmalıdır). Amma o qədər də vaxt keçmədi, çar İraklinin yanına qoşundan adam gəlib sülh xəbərini gətirdi ki, burada da şəhər əhalisinə böyük sevinc, böyük ümid verildi və satqınları qınamağa başladılar. Katolikos Anton bu xəbəri gətirən adamları çox axtartdırdı: Çar İrakli qoşunu ilə həlak olub, lakin onlar başa düşə bilmədilər. Katolikos Anton məəttəl qaldı: Nə baş verir, nə xəbərdir? – Başqaları da hamısı təəccüblə soruşdular. Amma kim nə bilirdi kimə nə desin. Bu səbəbdən şəhər əhalisinin yarısı arvad-uşaqları ilə və çariça da şəhərdə qaldılar. Çünki çar İrakiyə böyük ümid bəsləyirdilər. İllah da ki, o şaiyədən sonra.

*(davamı növbəti sayda)*

Gürcü dilindən tərcümə edən:
***Mirzə MƏMMƏDOĞLU***

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი ოოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 YANVAR
2025-Cİ İL
№ 02 (219)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTAN PARLAMENTİ İQLİM DƏYİŞİKLİYİ İLƏ BAĞLI QANUN LAYİHƏSİ HAZIRLAYIR



Gürcüstan Parlamentinin Ətraf Mühitin Mühafizəsi və Təbii Sərvətlər Komitəsində “İqlim Dəyişikliyi haqqında” qanun layihəsi hazırlanıb.

Yanvarın 23-də layihə ilə bağlı ilk işçi iclası keçirilib. Bildirilib ki, komitə “yaşıl və ağ sənədlər” əsasında qanun layihəsinin ilkin variantını hazırlayıb.

Komitənin sədri Maia Bitadze iqlim dəyişikliyi ilə bağlı məsələlərin vahid qanunvericilik aktında cəmləşdirilməsinin zəruriliyini vurğulayıb. O, qeyd edib ki, iqlim qanunu Gürcüstanın iqlim dəyişikliyi ilə bağlı beynəlxalq öhdəliklərini yerinə yetirməsi üçün siyasi sənədlərin işlənib hazırlanması və təsdiqlənməsi qaydalarını tam əhatə etməlidir.

“İqlim dəyişikliyi ilə bağlı qanun layihəsinin qəbulu ölkənin həm Assosiasiya Sazişi, həm də Enerji Birliyi Müqaviləsi üzrə üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinin təməl daşlarından biridir. Parlament Gürcüstan İqlim Qanununun hazırlanmasında aparıcı rol oynayır və bu prosesə milli səviyyədə rəhbərlik edir”, – deyə komitə sədri vurğulayıb.

## BAŞ NAZİR: YENİ HAVA LİMANI GÜRCÜSTANIN İQTİSADİ POTENSİALININ ARTMASINA XİDMƏT EDƏCƏK



Yeni hava limanı Gürcüstanın inkişafına və iqtisadi potensialının artırılmasına xidmət edəcək. Bunu Gürcüstanın Baş naziri İrakli Kobaxidze brifinqdə deyib.

Onun sözlərinə görə, hazırda Tbilisi hava limanının illik sərnişin tutumu 4 milyon nəfərdir və bu sayı artırmaq mümkün deyil.

“Turizm sahəsindəki artım nəzərə alınaraq yeni infrastrukturun yaradılması vacibdir. Yeni hava limanının tikintisi məhz bu məqsədi güdür. Vaziani ərazisində yeni aeroportun inşası nəzərdə tutulub və tərəfdaşlarla müqavilə bağlanması üçün işlər sürətlə davam edir”, – deyə Baş nazir bildirib.

İ.Kobaxidze əlavə edib ki, 2029-cu ilə qədər layihənin birinci mərhələsinin başa çatdırılması planlaşdırılır:

“Yeni hava limanı açıldıqdan sonra illik sərnişin tutumu 18 milyon nəfərə çatacaq. Bu, yalnız Tbilisinin deyil, Gürcüstanın inkişafına və iqtisadi potensialının artırılmasına xidmət edəcək irimiqyaslı bir layihədir”.

## GÜRCÜSTANIN TURİZM GƏLİRLƏRİ 7,3 % ARTIB



2024-cü ildə Gürcüstan turizmdən rekord məbləğdə – 4 milyard 425,4 milyon ABŞ dolları gəlir əldə edib ki, bu da 2023-cü illə müqayisədə 7,3 % çoxdur. Bunu ölkənin Baş nazirinin I müavini, iqtisadiyyat naziri Levan Davitaşvili bildirib.

Onun sözlərinə görə, bununla da hökumətin turizm gəlirlərinin dinamikası ilə bağlı proqnozu özünü doğruldub.

Gürcüstan rəsmisi qeyd edib ki, illik gəlirin 963,7 milyon ABŞ dolları IV rübün payına düşüb. Bu isə 1 il əvvələ nisbətən 10,3 % çoxdur.

Onun sözlərinə görə, turizm gəlirlərinin illik artımının 128,3 milyon ABŞ dolları İsrail, 25,8 milyon ABŞ dolları Azərbaycan, 22,9 milyon ABŞ dolları İran, 21,6 milyon ABŞ dolları Avropa İttifaqı, 21,4 milyon ABŞ dolları isə Səudiyyə Ərəbistanı vətəndaşlarının hesabına olub.

## GÜRCÜSTANA MALYARİYADAN AZAD ÖLKƏ SERTİFİKATI VERİLİB

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Gürcüstanı malyariyadan azad ölkə elan edib. Bu barədə Gürcüstan Səhiyyə Nazirliyi məlumat yayıb.

Nazir Mixeil Sarcveladzenin sözlərinə görə, malyariyadan təmizlənmiş ölkə elan edilməsi Gürcüstanın səhiyyə sisteminin davamlılığının növbəti tanınmasıdır. Onun sözlərinə görə, bu uğur Gürcüstanın mühüm və ciddi çağırışların öhdəsindən gəlmək qabiliyyətinə malik olması deməkdir.

ÜST-ün Avropa Regional Bürosunun direktoru Hans Kluge də Gürcüstana malyariyadan azad ölkə sertifikatının verilməsi münasibətilə təbrik edib.

## OKTYABRDA GÜRCÜSTANDA YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARINA SEÇKİLƏR KEÇİRİLƏCƏK




Bu il oktyabrın 4-də Gürcüstanda yerli özünüidarəetmə orqanlarına seçkilər keçiriləcək. Bu barədə Gürcüstanın Mərkəzi Seçki Komissiyası məlumat yayıb.

Məlumatda bildirilir ki, seçkilər qanunvericiyə uyğun olaraq, oktyabrın ilk şənbə günündə – 4 oktyabrda baş tutacaq.

Mərkəzi Seçki Komissiyası bələdiyyə orqanlarına seçkilərdə iştirak etmək istəyən siyasi partiyaları qeyd olunan hüququ əldə etmək üçün bütün zəruri prosedurları vaxtında həyata keçirməyə çağırıb.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.